# İlin birinci rübü və əsas statistik göstəricilər

Ölkə rayonları arasında sosial-iqtisadi inkişaf sürətinə görə xüsusi yer tutan Qəbələ rayonunda 2013-cü ilin birinci rübü ərzində bir sıra uğurlu nailiyyətlər qazanılmışdır. Ötən illərdə olduğu kimi ilin ilk rübündə də rayonda sosial-iqtisadi inkişafın dinamikası təmin olunmuş, geniş yaraşıqlı asfalt yollar salınmış, turizmi inkişaf etdirmək məqsədilə yeni istirahət mərkəzlərinin tikintilərində işlər sürətlənmiş, qəsəbə və kəndlərimizə qaz xətləri çəkilmiş, iqtisadiyyatın əsas sahələri olan sənaye və kənd təsərrüfatında proqnoz tapşırıqlara artıqlaması ilə əməl edilmişdir.

İqtisadiyyatın ayrı-ayrı sahələri üzrə vəziyyətə nəzər salsaq qeyd etdiklərimizin daha aydın şahidi olarıq. 2013-cü ilin birinci rübündə rayonda 4 milyon 35 min manat məhsul buraxılışı olmuşdur. Bu göstərici ötən ilin birinci rübü ilə müqayisədə 277 min manat, yaxud 7,4 faiz çoxdur. Həmin göstəricilər üzrə bu ilin birinci rübündə kənd təsərrüfatında 353 min manatlıq çox məhsul istehsal edilmişdir. Başqa sözlə desək, kənd təsərrüfatında 9 milyon 355 min manatlıq (3,6 faiz çox) məhsul istehsal olunmuşdur.

Ötən ilin birinci rübünə nisbətən cari ilin birinci rübündə tikinti işlərinin həcmi 943 min manat artaraq 17 milyon 626 min manatdan 18 milyon 559 min manata (artım 5,3 faiz) çatmışdır. Nəqliyyatda (18,5 faiz), rabitədə (17,8 faiz) ticarət xidmətində (7,4 faiz) artım olmuşdur. Ümumilikdə rayonda iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 39 milyon 626 min manatlıq məhsul istehsal olunmuşdur. Bu da ötən ilin müvafiq dövrü üzrə 2 milyon 200 min manat, yaxud 5,7 faiz artım deməkdir. Adambaşına düşən ümumi məhsul buraxılışı 385 manatdan 402 manata (17 manat çox) çatmışdır. Ümumi məhsul istehsalında və xidmətlərin göstərilməsində qeyri-dövlət bölməsinin xüsusi çəkisi 72,1 faiz təşkil etmişdir. Sənaye müəssisələrində çalışan 742 nəfərin orta aylıq nominal əməkhaqqı 344 manat təşkil etmiş və əvvəlki ilin müvafiq dövrünə görə 10,6 faiz artım olmuşdur.

Ötən ilin payızında cari ilin taxıl istehsalı üçün 25.958 hektar sahədə payızlıq dənli bitkilər əkilmişdir. Sahələrə qış dövründə yüksək keyfiyyətli aqrotexniki qulluq göstərilmişdir. Bu il aprel ayının 1-i vəziyyətinə 212 hektar sahədə kartof, 47 hektar sahədə tərəvəz, 71 hektar sahədə çoxillik, 17 hektar sahədə isə birillik ot bitkiləri əkilmişdir. Bu göstərici də ötən ilin müvafiq dövrü ilə müqayisədə 11 hektar artmışdır.

Aprel ayının 1-i vəziyyətinə iribuynuzlu mal-qaranın sayı 52.715 baş (ötən ilin müvafiq dövrünə görə 283 baş çox), o cümlədən inək və camışların sayı 26.261 baş (122 baş çox), qoyun və keçilərin sayı 219.589 baş (641 baş çox), donuzların sayı 989 baş (75 baş çox) olmuşdur.

İlin birinci rübündə rayonda 4 ibtidai, 11 əsas, 53 tam orta, cəmi 68 ümumtəhsi məktəbi fəaliyyət göstərmiş, bu məktəblərdə 16.664 nəfər şagirdin təlim-tərbiyəsi ilə 2.499 nəfər müəllim məşğul olmuşdur. 22 məktəbəqədər müəssisədə 780 nəfər uşaq bərbiyə alır. Rayonun peşə təhsili məktəbində 408 şagird 8 adda peşəyə yiyələnir. Onların təlim-tərbiyəsi ilə 15 müəllim, 13 usta məşğul olur.

Ötən rübdə rayonda mədəniyyət və turizmin inkişafı da təmin edilmişdir. Bu sahədə hazırda bir mədəniyyət mərkəzi 26 kitabxana, 1 xalq teatrı, 31 klub, 4 mədəniyyət və istirahət parkı, 3 muzey fəaliyyət göstərir. Turizmin inkişafı üçün rayonda tikinti işləri davam etdirilmişdir.

Səhiyyə, nəqliyyat , rabitə, əhaliyyə ticarət xidməti sahəsində də görülən işlərin keyfiyyətinə, xüsusilə, əhaliyyə göstərilən bütün növ xidmətlərin yaxşılaşdırılmasına diqqət artırılmışdır. İlin ilk rübü ərzində rayonda avtomobil nəqliyyatı vasitəsi ilə 226 min ton, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 16 min ton çox yük daşınmışdır. Sərnişin daşınması isə 1 milyon 632 min nəfərə (artım 122 min nəfər) çatmışdır.

Rabitə xidməti üzrə 204,6 min manatlıq, o cümlədən əhaliyə 185,4 min manatlıq xidmət göstərilmişdir. İstehlak bazarında əhaliyə 7 iilyon 445 min manatlıq pullu xidmət göstərilmişdir. Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmi 27 milyon 445 min manat (artım 2,3 faiz) olmuşdur.

Birinci rüb ərzində rayonda muzdla çalışan işçilərin orta aylıq əməkhaqqı 243 manat təşkil etmişdir. Aprel ayının 1-nə rayonda məşğul əhalinin sayı 50.855 nəfərdir. Onların 9.289 nəfəri muzdla işləyənlərdir. Onların da 68 faizi (6.314 nəfəri) dövlət mülkiyyətində çalışır.

2013-cü ilin birinci rübündə yeni istifadəyə verilmiş müəssisələrin hesabına rayonda 224 yeni iş yeri açılmışdır. Ümumiyyətlə, 2003-cü ilin oktyabr ayının 1-dən 2013-cü ilin aprel ayının 1-dək rayon üzrə 11.167 yeni iş yeri yaradılmışdır. Bu iş yerlərinin 9119-u daimi iş yeridir.

Rayon ərazisi 1550 kvadratkilometrdir. Aprel ayının 1-i vəziyyətinə əhalinin sayı 98.557 nəfər olmuşdur. Hər kvadratkilometrə əhali sıxlığı 63,1 nəfərdir.

Məcburi köçkün ailələrinin sayı 503-ə bərabərdir. Bu ailələrdə əhali sayı 1996 nəfərdir.

**QƏBƏLƏ RAYON STATİSTİKA İDARƏSİ.**

# Taxıl yığımına hazırlıq başa çatdı

Bu ilin yaz fəslində havaların qeyri sabit keçməsinə baxmayaraq taxılçıların əməyi hədər getmədi. Taxıl zəmilərində bol məhsul yetişib. 25.800 hektar arpa və buğda əkini sahələrinin hər hektarından 25-30 sentner məhsul gözlənilir. Orta hesabla 60-63 min ton buğda və arpa tədarük etmək imkanı yaranmışdı. Bu da rayon əhalisinin çörək və çörək məhsullarına olan ehtiyacın daxili məhsul hesabına təmin edəcək.

Taxıl yığımına az vaxt qalıb. Bir neçə gündən sonra fermerlər və fiziki şəxslər arpa biçininə başlayacaqlar. İndi əsas məqsəd taxılı tez və itkisiz toplamaqdan ibarətdir. Bu da görülən hazırlıq işlərindən çox asılıdır. Odur ki, taxılçılarımız məhsul yığımına hazırlıq işlərinə vaxtında başlamış, mühüm işləri başa çatdırmışlar. Xüsusilə biçin-yığım kampaniyasında iştirak edəcək kombaynlar təmir edilərək saz vəziyyətə gətirilmiş, şum traktorları, taxıl daşıyan maşınlar və digər texnika da starta hazırlanmışdır. Eyni zamanda taxıl saxlanılan anbarlar təmizlənmiş və dərmanlanmışdır. Hesablamalara görə taxıl yığımının ilk günlərində 80 ədəd kombayn, xeyli sayda şum traktoru iştirak edəcəkdir.

Taxıl yığımına ayrı-ayrı fermerlər və fiziki şəxslər nümunəvi hazırlaşmışlar. Bu sırada Gilan MMS-nin aqrar bölməsi, Şahin Mustafayevin rəhbərlik etdiyi «Həsrət» fermer təsərrüfatı, fiziki şəxs Tehran Səddinovun daha yaxşı hazırlaşdığını demək olar.

Taxıl yığımı zamanında zəmiləri yanğından qorumaq məqsədilə bir sıra tədbirlər həyata keçirilmiş və bununla əlaqədar taxılçılar arasında maarifləndirmə işlərinə də xüsusi əhəmiyyət verilir. Bu məqsədlə Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğın Nəzarəti Xidməti və rayon icra hakimiyyətinin birgə təşkil etdiyi müşavirədə yay mövsümündə taxıl, ot, dənli və texniki bitkilərin biçin zamanı sahələrdə baş verəcək yanğın hadisələrinin qarşısının alınması yolları barədə müşavirə iştirakçılarına geniş məlumat verilmişdir. Bundan əlavə müşavirədə qabaqlayıcı tədbirlərdən danışılmış, texnikanın saz saxlanılmasının vacibliyi vurğulanmış və sahələri qızmar yay günlərində yanğın təhlükəsizliyindən qorumaq üçün işçi qrupu yaradılması nəzərdə tutulmuşdur. Taxıl yığımı ilə əlaqədar sahə gözətçiləri arasında da nizam-intizam gücləndirilmiş, əkin sahələrini qorumaqla yanaşı, taxıl zəmilərinin kənarlarındakı ot və yabanı bitkiləri də biçməyə başlamışlar.

Biz işimizin ən böyük hissəsini toxumçuluqla məşğul olan təsərrüfatlara yönəltmişik. Çünki toxumçuluqla məşğul olan fermer təsərrüfatları və fiziki şəxslər məhsuldar toxum fondunun yaradılmasında mühüm rol oynayırlar. Bunu nəzərə alaraq ən keyfiyyətli, məşhsuldar və rayonlaşdırılmış toxum sortlarının istehsalına rayon icra hakimiyyətinin aqrar məsələlər şöbəsi tərəfindən gündəlik nəzarət edilir və toxum istehsalı ilə məşğul olan təsərrüfatlara lazımi qayğı və köməklik göstərilir.

Taxıl yığımı və biçini ilə əlaqədar rayonda komissiya yaradılacaq. Bu komissiyanın üzvləri biçin dövründə müntəzəm olaraq sahələrdə olacaq, yığımın gedişinə nəzarət edəcək, texnikanın boşdayanma hallarına yol verməyəcək, hər hansı bir problem yaranarsa, lazımi tədbirlər görülməsinə cavabdeh olacaqlar.

**Elmdar ŞƏRİFOV,**
**rayon icra hakimiyyətinin aqrar şöbəsinin baş aqronomu.**

# Heyvandarlıq gəlirli sahədir

Qəbələ rayonunda iqtisadiyyatın əsasını heyvandarlıq təsərrüfatı təşkil edir. Odur ki, kənd əhalisinin əsas məşğuliyyəti də, gəlir mənbəyi də bu sahə ilə çox bağlıdır. Son illər rayonda heyvandarlığın dinamik inkişafı üçün aparılmış tədbirlər bu sahənin daha da inkişaf etməsinə şərait yaratmış, insanların heyvandarlığa münasibəti əvvəlki illərə nisbətən xeyli yaxşılaşmışdır. Qaramal və davarların baş sayı artmış, ət və süd məhsulları istehsalı çoxalmışdır.

Rayona xarici ölkələrdən yüksək məhsuldar cins qaramal gətirilməsi həyata keçirilmişdir ki, bu da süd və süd məhsullarının bolluğunun yaradılmasına imkan verəcək.

Davarların say artımında Əmirvan, Yenikənd, Laza, Qəmərvan, Zərgərli və Yeni Dizaxlı kəndlərinin, iribuynuzlu mal-qaranın say artımında Bayramkoxalı, Kürd, Zalam, Məlikli kəndlərinin sahibkarları irəlidə gedirlər.

Rayonda heyvandarlıq sahəsinin daha da inkişaf etdirilməsi, yeni iş yerlərinin açılması istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir.

1000 başlıq müasir standartlara cavab verən heyvandarlıq kompleksi 660 baş gətirilən məhsuldar cins inəklər hesabına tam gücü ilə işləməyə başlamışdır. Böyük Əmili kəndi ərazisindəki quşçuluq müəssisəsində tikinti işləri demək olar ki, başa çatmaq üzrədir. Obyekt yaxın vaxtlarda istifadəyə veriləcəkdir.

Damazlıq işinin yaxşılaşdırılması, zoobaytar xidmətinin təşkili sahəsində nəzərə çarpacaq işlər görülmüşdür. Süni mayalanma texnalogiyası öz müsbət nəticəsini verir. Təkcə bu ilin ötən ayları ərzində 908 baş iribuynuzlu mal süni yolla mayalandırılmışdır. Epizootiya əleyhinə mübarizə və müalicə-profilaktika tədbirləri rayon baytarlıq idarəsi tərəfindən planauyğun qaydalarda həyata keçirilir. İribuynuzlu heyvanlar və qoyun-keçilər qara yara xəstəliyinə qarşı peyvənd olunur və digər tədbirlər görülür.

Bütün bunlar onu deməyə əsas verir ki, Qəbələdə heyvandarlıq təsərrüfatının dinamik şəkildə inkişaf etdirilməsinə xüsusi qayğı göstərilməkdədir. Bu, əhalinin rifahının yaxşılaşdırılmasına, təkan verir.Digər tərəfdən ərzaq bolluğunun yaradılmasına şərait yaradır, çəkilən zəhmət bəhrəsini verir.

**Aslan CƏLİLOV.**